# Şəxsiyyət keyfiyyətlərinin və xarakterin formalaşma mərhələləri

"Azərbaycan müəllimi" qəzeti Azərbaycan Gənc Müəllimlər Assosiasiyası (AGMA) ilə birgə həyata keçirdiyi "Çağdaş təhsildə təşkilatlanma" layihəsi çərçivəsində Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, professor Hikmət Əlizadənin məqaləsini təqdim edir:



Yeniyetməlik yaşında, obrazlı desək, şagirdin ideal "Mən" axtarışına səyahəti başlayır. O real "Mən"i ilə sosial "Mən" arasındakı fərqlər müstəvisində hər gün ideal "Mən"ə bir addım yaxınlaşır. Axtarışlar onda özünütərbiyənin əsasının qoyulmasına kömək edir. Yeniyetməlik yaşında yaranan özünütərbiyə ideal "Mən"in axtarılması yolunun başlanğıcıdır. İnsanlar bu yolda mütəmadi olaraq "yol ayrıcları" ilə rastlaşır və seçim etməli olurlar. Seçim zamanı qəbul etdikləri qərarlar onları ya uğura və ya uğursuzluğa aparır.

Nağıllarda bu yollar güzəran tərbiyəsi müstəvisində açıqlanır. Hətta bu gün psixoloji tədqiqatlarda insanın sirlərlə dolu dünyasının açılan səhifələrini xalq öz məişət həyatında çoxdan kəşf edib, onları sadəcə olaraq, dövrün inkişaf səviyyəsinə uyğun, bədii formada əks etdirib. Xalq yaradıcılıq nümunələrini fikirləşərək oxuyanda, hər şey açıq-aydın görünür. Bir fakta diqqət edək, nağıl qəhrəmanları çox hallarda yol ayrıcına gəlib çıxırlar. Bu yollardan biri uğura, digəri uğursuzluğa aparır. Bu yollardan biri çətin, biri rəvan olur. Adətən çətin yol nağıl qəhrəmanının bəxtinə düşür. O bu çətinliklərdən ağıl xəzinəsi, şəxsiyyət keyfiyyətləri və xarakteri ilə çıxır. Bir sıra hallarda nağıl qəhrəmanı müdrik bir qoca ilə rastlaşır. Bu qoca ona çətinliyin öhdəsindən gəlməyin yollarını göstərir.

Bu gün də insanlar həyatları boyu "yol ayrıcları" ilə üz-üzə gəlirlər. İlk yol ayrıcı yeniyetməlik dövrünün payına düşür. Bu yolda o bəzən uğur, bəzən uğursuzluq ilə üz-üzə qalır. Uğur və ya uğursuzluqlar onun şəxsiyyət keyfiyyətlərinin və xarakterinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Hər bir insanın fəaliyyətində həm uğur, həm də uğursuzluqlar olur. Bu, təbiidir, lakin insan həyatında uğurun, yoxsa uğursuzluqların hansının çox olması onun formalaşmasında həlledici rol oynayır. Onun özünənəzarət və özünüqiymətləndirmə səviyyəsi uğurlarının və ya uğursuzluqlarının çoxalmasını şərtləndirən amilə çevrilir.

Psixoloqlar insanın eksternal və internal tiplərini ayırd edirlər. Bu tiplər yeniyetmənin özünənəzarət və özünüqiymətləndirmə keyfiyyətlərinin formalaşmasına və inkişafına təkan verir. Eksternal və internal tiplər bir-birindən müxtəlif sosial hadisələri şərh etmə üsulu ilə fərqlənirlər. Məsələn, eksternallar hər bir uğursuzluğun səbəbini başqa insanlarda axtardığı halda, internallar özlərində axtarırlar. Səbəbləri insan özündə axtaranda şəxsiyyət keyfiyyətləri və xarakteri onun uğursuzluqdan çıxmasına kömək edir, bu prosesdə yeniyetmənin iddiası səviyyəsi yüksəlir.

Uğur və ya uğursuzluqların səbəblərini insanlar müxtəlif istiqamətlərdə axtarsalar da, psixoloqlar bu səbəbləri belə qruplaşdırırlar:

1. Qabiliyyətin olub-olmaması;
2. İnadkarlıq göstərib-göstərməməsi;
3. Tapşırığın çətin və ya asan olması;
4. İşinin düz gətirib-gətirməməsi.

Birinci iki parametr daxili, sonrakı ikisi isə xarici səbəb kimi dəyərləndirilir. Şagird uğursuzluğunun səbəblərini başqa adamlarda axtaranda (məsələn, mənə çətin tapşırıq düşdü və ya bilərəkdən çətin tapşırıq verdilər, ona görə həll edə bilmədim) uğurların sayını çoxalda bilmir, özündə axtaranda inadkarlıq göstərib (mən bu çətinliyin öhdəsindən gələ bilərəm) uğurları çoxaltmaq mümkün olur. Belə hallarda onun inkişaf sürəti artır.

Hər bir insanın müxtəlif qabiliyyətlərə malik olması fikri bu gün pedaqoji aksioma kimi səslənir. Uğursuzluqları fonunda şagirdin özünü qabiliyyətsiz sayması və bu fakta müəllimlərin laqeyd yanaşması onun inkişafının qarşısında elə sədd qoya bilir ki, bu səddi aradan qaldırmağa "Arximedin manivelası"nın belə gücü çatmaz. Buna görə də məhz uğursuzluq məqamlarında müəllim müdrik bir şəxs statusunda (nağıllarda olduğu kimi) şagirdin yanında olduqda, ona uğurlarını artırmaq üçün yeni şanslar yaratdıqda, şagirddə "Arximed manivela"sından güclü olan özünəinam hissini yarada bilir. Xüsusən yeniyetməlik dövründə hər bir şagirdin müəllimin fasilitatorluq fəaliyyətinə ehtiyacı vardır. Qabaqcıl müəllimlər məhz şagirdlərin uğursuzluqlarının azalmasında bu yola üstünlük verib və uğurlu nəticələr əldə ediblər.

İnsanın inadkar olması da onun uğurlarının artmasının əsas səbəblərindən biridir. Müəllim şagirdin bu keyfiyyətini onun inkişafına yönəldə biləndə müdrik insan statusu əldə edir. Şagirdin özünə qaldıqda, o inadkarlıq kimi qiymətli keyfiyyəti "Axillisin dabanı" statusuna çevirərək, yoldaşları ilə boş-boş, heç bir mənası olmayan mübahisələrə "xərcləyə" bilər. Müəllim şagirdlə əməkdaşlıq edərək onun bu qiymətli "xəzinəsini" inkişafına istiqamətləndirə bilsə, görün hansı pedaqoji "möcüzələr" yarana bilər. Daha dəqiq ifadə etsək, şagirdin inadkarlığı onun təlim fəaliyyəti ilə bağlı daxili hərəkətverici qüvvəyə çevriləndə, şagirdə şəxsiyyətin və xarakterin inkişafı baxımından "ən yüksək zirvələri fəth etmək üçün qüdrət" vermiş olur. Yeniyetməlik dövründə müəllimin şagirdlərə belə münasibəti onların inamını artırır, onlar çətinlikdən qorxmur və daha çətin tapşırıqları həll etməyə başlayırlar. Bu, onun iddia səviyyəsinin artma göstəricisidir.

Məktəbdə müəllim daha çətin tapşırıqları həll etmək üçün şagirddə motivasiya yaradanda, obrazlı desək, "ayağa qalxmağın yolunu göstərəndə" insanı həyata hazırlamış olur. İnsan həyatda qarşılaşdığı çətinlikləri həll edəndə müəllimin əməyi öz bəhrəsini vermiş olur. Buna görə müəllimi böyük qüvvə adlandırırlar. Onun müdrikliyi yeniyetməlik dövründə şagirdin şəxsiyyət keyfiyyətlərinin və xarakterinin formalaşmasında "hava və su" kimi lazımdır.